**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ İNSTİTUTU**

---

*Əlyazması hüququnda*

**ÜZEYİR QARA OĞLU BALAKİŞİYEV**

# MÜASİR AZƏRBAYCANDA MİLLİ SİYASƏTİN FORMALAŞMASINDA DÖVLƏT DİLİNİN ROLU: SOSİAL-FƏLSƏFİ TƏHLİL

**İxtisas : 7207.01-Sosial fəlsəfə**

Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

BAKI- 2017

Dissertasiyaişi AMEA-nın Fəlsəfə İnstitutunun "Sosial fəlsəfə" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Azər Xoşbəxt oğlu Mustafayev**
*fəlsəfə üzrə elmlər doktoru, professor*

**Rəsmi opponetlər:** **Zeynəddin Camal oğlu Hacıyev**
*fəlsəfə üzrə elmlər doktoru, professor*

**Qərib Vəli oğlu Allahverdiyev**
*fəlsəfə üzrə elmlər doktoru, professor*

**Aparıcı təşkilat:** **Bakı Slavyan Unversiteti**

Müdafiə «____» «___________» 2017-ci il saat ______ AMEA-nın Fəlsəfə İnstitutu nəzdindəki fəlsəfə üzrə elmlər doktoru və fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D 01.115 Dissertasiya Şurasının iclasında olacaqdır.

Ünvan: Bakı şəhəri Az-1143, Hüseyn Cavid prospekti 115, AMEA-nın Fəlsəfə İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat «___» «_________» 2017-ci ildə göndərilmişdir.

**Fəlsəfə İnstitutunun nəzdindəki D.01.115 Dissertasiya Şurasının elmi katibi, fəlsəfə üzrə fəlsəfə doktoru:** **Sevinc Arif qızı Həsənova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Müasir qloballaşma dövründə millətlərarası münasibətlərdə etnodil prosesləri, eləcə də çoxdilli, polietnik cəmiyyətlərdə dövlət dili siyasəti sosial fəlsəfənin ən aktual problemlərindən birinə çevrilmişdir. Hazırda millətlərarası, dinlərarası münasibətlərdə sosial gərginliyin artdığı, dünyada münaqişələrin genişləndiyi bir şəraitdə milli dil siyasətinin reallaşması dövrün zəruri və aktual problemi kimi diqqəti cəlb edir. Bu baxımdan Azərbaycan cəmiy-yətində sabitliyin gücləndirilməsi, dil, mədəni və konfessional münasibətlərin daxili inteqrasiyasının möhkəmləndirilməsi qarşıda duran əsas vəzifələrdən biridir. Heç şübhəsiz ki, uğurlu dövlət dili siyasəti milli münasibətləri tənzimləməklə yanaşı, həm də ölkədə yaşayan müxtəlif xalqların və etnik qrupların qarşılıqlı an-laşmasına, cəmiyyətdə demokratiyanın, tolerantlığın inkişafına, bütün dillərin qorunub saxlanmasına xidmət edir.

Dissertasiyanın mövzusunun aktuallığı aşağıdakı məqamlarla şətrlənir:

1. Dövlət dili siyasəti milli münasibətlərin inkişafına təsir etməklə yanaşı, həm də dil siyasətinin subyektləri, onun həyata keçirilməsinin müəyyən üsulları ilə də əlaqədardır;

2.Azərbaycanın dövlət dili siyasəti müasir qloballaşma dövründə özünəməx-susluğu, spesifikliyilə fərqlənir.Lakin bu problem müasir sosial fəlsəfə elmində hələ kifayət qədər hərtərəfli və dərindən tədqiq olunmamışdır.

3.Dünyada və Azərbaycanda müasir dil şəraiti əhəmiyyətli dərəcədə innova-siyalarla səciyyələnir ki, bu da mədəniyyətlərarası kommunikasiyanı optimallaşdır-mağa imkan verən yeni cəhətləri nəzərə almağı və onu dərk etməyi tələb edir;

4.Problemin aktuallığı ondadır ki, Azərbaycan dili dövlət dili kimi ölkəmizdə yaşayan bütün xalqların, milli azlıqların, azsaylı xalqların, etnik qrupların ünsiyyət vasitəsi olmaqla yanaşı, onların hər birinin dillərinin və mədəniyyətlərinin sərbəst inkişafını təmin edir, dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların hüquq və azadlıqları qorunur, dövlət və cəmiyyət qarşısında vəzifələrin yerinə yetirilməsi təmin olunur, bərabərhüquqlu insanların yaşadıqları, millətlərarası münasibətlər mədəniyyətinin formalaşdığı demokratik, sivilizasiyalı, humanist, ədalətli, tolerant, multikultural cəmiyyət daha da inkişaf etdirilir.

5.Müstəqillik əldə edilənədək Azərbaycan dili nə qədər inkişaf etsə də həqiqi dövlət dili səviyyəsinə yüksəlməmişdi. Milli dövlətçiliyin inkişafı dövlət dilinə də təsir edir, onu ictimai həyatın bütün sahələrinə nüfuz edən güclü bir dilə çevirir. Bu gün milli-etnik varlığımızın ayrılmaz atributu olan Azərbaycan dili elm, siyasət, dövlət dili statusu qazanaraq özünün mükəmməlliyiilə fərqlənir.

6.Tədqiqatın aktuallığı müasir Azərbaycanın çoxdilliliyi, polietnikliyi şərai-tilə, həmçinin Azərbaycan dilinin dövlət dili funksiyasını yerinə yetirməsilə də mü-əyyən olunur.Dövlət dili statusu qazanan Azərbaycan dil milli dövlətimizin mü-dafiəsi altında ictimai həyatın bütün sahələrinə tətbiq edilir.

Buna görə də uğurlu dövlət dili siyasəti yürüdən Azərbaycan etnik dillərin bə-rabərhüquqlu inkişafını, dil mədəniyyətinin daha da yüksəlməsini, bütün vətən-daşların dil hüquqlarına hörmət edilməsini, bütün xalqların və milli azlıqların qar-şılıqlı anlaşmasını və mənəvi zənginləşməsini, onlar arasında həmrəylik və dostluğun möhkəmlənməsini, demokratik dəyərlərin reallaşmasını təmin edir. Azərbaycan dilini azərbaycançılıq ideologiyasının mühüm tərkib hissəsi və yüksək inkişaf etmiş dövlət dili kimi qiymətləndirən Ulu Öndər Heydər Əliyev demişdir: “...Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi,inkişaf etməsi bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, Azərbaycançılıq məsələsidir. Azərbaycançılıq bizim üçün böyük Azərbaycan nöqteyi-nəzərindən çox vacibdir.»[1].

Dövlətin dil siyasəti milli identikliyin transformasiyası və millətlərin özünü-təyin etməsi prosesində dil dəyərlərinə əsaslı təsir edən amillərdən biridir. Milli-mədəni amillərin aktuallaşdığı şəraitdə dil etnik identikliyin prioritet əlaməti ol-maqla yanaşı, çoxmillətli cəmiyyətlərdə milli birliyin əsas vasitəsi kimi çıxış edir.

Dünyanın qabaqcıl, demokratik təcrübəsindən istifadə edilməsi zamanı milli xüsusiyyətləri nəzərə alaraq Azərbaycan Respublikası aparıcı xalqın dili olan Azərbaycan dilini dövlət dili kimi inkişaf etdirir. Azərbaycan dilinin dövlət dili kimi ölkəmizdə inkişaf etmiş dünya standartları səviyyəsinə yüksəldilməsində Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Bu gün ölkə başçısı İlham Əliyevin apardığı uğurlu dövlət dili siyasətinin metodoloji əsaslarını Heydər Əliyevin bu sahədəki müdrik ideyaları təşkil edir.Dövlət başçısı İlham Əliyev Azərbaycan dili-

---

[1] Heydər Əliyev Müstəqilliyimiz əbədidir, XVI kitab, Bakı: Azərnəşr, 2005, s.411.

nin inkişafına dair verdiyi sərəncamda deyir:"Azərbaycan dili xalqımızın mənəvi sərvəti, dünya azərbaycanlılarının həmrəyliyinin sarsılmaz təməli, dövlətimizin müstəqilliyinin başlıca rəmzlərindən biridir. Bu dildə dünya ədəbiyyatı xəzinəsinə daxil olan misilsiz əsərlər yaradılmışdır. Hər bir azərbaycanlı tarixin ayrı-ayrı dövrlərində dilimizin dövlət dili kimi fəaliyyət göstərməsindən böyük qürur hissi keçirir. Ölkəmizin zaman-zaman müxtəlif imperiyalar tərkibində yaşamağa məcbur olmasına baxmayaraq, ana dilimiz hətta bu ağır vaxtlarda belə milli məfkurənin, milli şüurun və milli-mədəni dəyərlərin layiqincə yaşamasını və inkişafını təmin etmişdir. Bu gün onun qorunması və qayğı ilə əhatə olunması müstəqil Azərbaycanın hər bir vətəndaşının müqəddəs borcudur."[1]

Müasir Azərbaycanın dövlət dili siyasətinin daha da təkmilləşdirilməsi, milli münasibətlərin inkişafına daha güclü təsir etməsi üçün dövlət dili siyasətinin sosial-fəlsəfi aspektinin araşdırılması mövzunun aktuallığını səciyyələndirir.

**Problemin işlənmə dərəcəsi**. Mövzunun ayrı-ayrı aspektləri Qərb, MDB, Şərq və Azərbaycan tədqiqatçıları tərəfindən araşdırılmışdır. Bəzi Qərb və MDB alimləri- L.Blumfild, V.Qak, V.fon Qumboldt, J.Frisman, J.Kinqerberq, N.Mauşamn, Y.Vereşaqin, V.Kostomarov dil və cəmiyyətin qarşılıqlı münasibətlərini, U.Vayn-reyx, R.Bell, A.Ferquson, O.Skubaqeot, Y.Tarasov, A.Şveyser dilin tarixi inkişaf problemlərini, M.Kronqauz, Q.Qaçev, F.Qrişayeva müxtəlif dövlətlərdə dil şəraitinin linqivistik xüsusiyyətlərini, M.Keniq, V.Kldo-kov, M.N.Marusenko dil siyasəti məsələlərini tədqiq etmişlər. Bundan başqa etnodil proseslərinə, o cümlədən ikidillilik probleminə V..Avorin, A.Ağayev, Y.Vereşaqin, M..Quboqlo, Y..Deşeriyev, M.M.İsayev öz əsərldərində diqqət yetirmişlər. Onlar ikidilliliyin linqi-vistikada etnoloji və psixoloji aspektlərini şərh etmişlər. M.N.Quboqlo ikidilliliyi etnososioloji aspektdən hərtərəfli təhlil etmişdir .

Etnik proseslərin dil aspektləri A.Kurovski, A.Tulıko, E.Sobolenko, İ.Çakvin tərəfindən tədqiqata cəlb olunmuşdur. Bundan başqa dil siyasətinin sosiolinqivistik (A.Alpatov, T.Kryuçkov) hüquqi

---

[1] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı» haqqında 2012-ci il 13 may tarixli Sərəncamı // . Azərbaycan Respublikasının Qanunvericilik Toplusu.N 5 (179), 31 may 2012-ci il. Bakı: Azərbaycan Respublikası Prezidentinin nəşri,2012,s.873

(A.Piqalkin) siyasi (M.Dyaçkov, V.Tşikov, A.Kuşnir, A.Leontyev, A.Qorkaves) aspektlərini tədqiq etmişlər. Bir sıra əsərlər çoxmillətli cəmiyyətlərdə dil siyasətinin nəzəriyyəsinə həsr olunmuşdur. bunlardan A.Baskakovu, M.Drobitovanı, İ.İlinvi göstərmək olar. N.Bıkoves, A.Qarkoves, İ.Derkanbayevin əsərlərində dil şəraiti, dillərin qarşılıqlı əlaqəsi öyrənilmişdir.

Tədqiqatlar arasında mültilinqivizm və multikulturalizm konsepsiyalarının, linqomədəni tolerantlıq məsələlərinin araşdırılması ilə diqqəti cəlb edən K.İnqlisin, F.Qrenin, S.de Alkantarın, D.Korsinun, S.Lejerin əsərlərini qeyd etmək olar.

Rusiyanın federativ quruluşu və çoxmillətli dövlət olması ilə bağlı, rus dilinin dövlət dili statusu ilə əlaqədar R.Əbdülatipovun, M.Baqlayın, L.Baltenkovun, F.Beryozinin, V.Vorobyovun əsərləri maraq doğurur.

Azərbaycan tədqiqatçıları da milli münasibətlər və dövlət dil siyasətinin qarşılıqlı münasibətlərinin müxtəlif aspektlərini araşdırmışlar. Dilin dilçilik nöqteyi-nəzərdən ümumnəzəri məsələlərini A.Axundov, Ə.Dəmirçizadə, A.Qurbanov, N.Məmmədov, H.Mirzəzadə, Ə.Abdullayev, A.Babayev, F.Cəlilov, T.Ə.Əfəndiyev, T.Hacıyev, H.Həsənov, M.Hüseynzadə, C.Cəfərov, M.Mirəliyev, Z.Verdiyeva. Y.Seyidov, F.Zeynalov və başqaları tədqiq etmişlər.

Bundan başqa dilçi alimlər Azərbaycan dilinin lüğət tərkibi (S.Cəfərov, N.Məmmədov, A.Aslanov, L.Kərimli, R.İsrafilova, S.Həbibova) ilə əlaqədar, ter-minologiya və müxtəlif sahələrinə (M.Şirəliyev, Ə.Orucov, M.Qasımov, Y.Məmmədli və b.) aid məqalələr, dissertasiyalar və monoqrafiyalar yazmışlar.

Sosial linqivistikanın nəzəri məsələləri, dil, şüur, təfəkkür münasibətləri, dil və sosial linqivistik konsepsiyalar H.Hüseynli, Ə.Rəcəbli, A.Rüstəmova[1], Azər-baycan dilinin və dövlət dili siyasətinin tarixi inkişaf mərhələləri N.Cəfərov, X.Hacıyeva, Kamil Vəli Narimanoğlu,

---

[1] Hüseynli H. Təfəkkürün anlayış – kateqorial aparatı: qneseoloji və metodoloji təhlil. Bakı: Sabah,1990,136 s; Rəcəbli Ə. Sosiolinqivistika. Bakı: Nurlan, 2004, 520 s.; yenə onun Dil, şüur, cəmiyyət tarix. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 320 s.; A.Rüstəmova. Sosial linqivistikanın fəlsəfi problemləri. Bakı: Adiloğlu, 2005, 200 s.; yenə onun Müasir dövrdə Azərbaycanda etnodil prosesləri. Bakı: Qartal, 2001, 92 s.;yenə onun İctimai inkişaf və dil.Bakı:Təknur, 2012,144 s,

Q.Qeybullayev, Ə.Sumbatzadə və başqaları tədqiq etmişlər[1]. Ulu Öndər Heydər Əliyevin Azərbaycan dilinin inkişafında oynadığı müstəsna rol alimlərdən A.Axundov, T.Hacıyev, Ə.Həsənov, N.Xudiyev, R.Mehdiyev, S.Novruzov, Y.Seyidov, S.Əhmədova, M.Zabelin [2] tərəfindən işıqlandırılmışdır.

Filologiya elmləri doktoru, professor Ə.Z.Abdullayev "Dil, siyasət, sosial tərəqqi" əsərində ictimai inkişafda sosial-linqivistik amillərin rolu, "dil siyasəti" anlayışı və onun sistemi, dövlət dili siyasətini marksist dilçiliyi nöqteyi-nəzərindən araşdırılsa da müəllif problemi ətraflı, obyektiv şərh edə bilmişdir.

Fəlsəfə üzrə elmlər doktoru Afaq Rüstəmova özünün "Müasir dövrdə Azər-baycanda etnodil prosesləri", "Sosial linqivistikanın fəlsəfi problemləri", «İctima inkişaf və dil» əsərlərində etnodil proseslərinin mahiyyəti, dil və cəmiyyətdə onun rolu, dövlət dilinin mahiyyəti və onun cəmiyyətdə statusunu təhlil etmişdir..

Tədqiqatçı X.D. Hacıyeva özünün «Dövlət dili və etnodil məsələləri» (Sosiolinqivistik tədqiqat təcrübəsi) əsərində sosiolinqivistikada və

---

[1] Cəfərov N. Azərbaycan türkcəsinin milliləşməsi tarixi. Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1995, 208 s.; yenə onun. Azərbaycanşünaslığın əsasları. Bakı: Pedaqogika, 2005, 256 s. Hacıyeva X. Dövlət dili və etnos məsələləri. (Sosiolinqvistik tədqiqat təcrübəsi), Bakı:Adiloğlu, 2004, 156 s.; Kamil Vəli Nərimanoğlu. Azərbaycan dövlət dili siyasəti (Dil-poetika araşdırmaları), Bakı: Çinar çap, 2008, 257 s.; Qeybullayev Q.Azərbaycan türklərinin təşəkkülü tarixindən, Bakı: Azərnəşr, 1994, 248 s.; Сумбатзаде А.С. Азербайджанцы – этногенез и формирование народа. Бакы: Элм, 1990, 304 с.

[2] Axundov A. Heydər Əliyevin Azərbaycan dilinə qayğısı qəhrəmanlığa bərabər xidmət idi. // Dirçəliş. XXI əsr. Jurnal, 2004, aprel-may №-75, s.42-51; yenə onun Heydər Əliyevin dil doktrinasında dil və dövlət dili problemi // Dirçəliş, XXI əsr, 2004, aprel, № 62, s. 46-56; Hacıyev T. Dövlət dilinə dövlət qayğısı // H.Əliyev və Azərbaycan filologiyası, Bakı: BDU, 2003, s. 191-200; Həsənov Ə. Heydər Əliyevin dövlət dili təlimi // Heydər Əliyev və Azərbaycan. Bakı: Azərbaycan, 2008, s.392-406; Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili.Bakı: Təhsil, 1997, 254s.; Mehdiyev R.Heydər Əlıyev: dəyişməyən idealımız// Heydər Əliyev və Azərbaycan .Bakı: Azərbaycan, 2008, s.12-24; Seyidov Y.Dilimizin böyük havadarı..//Bakı Universitetinin Xəbərləri (Humanitar seriya),1998,№ 1,s.61-70; Əhmədova S.A. Heydər Əliyev dil siyasəti.Bakı: MBM nəşriyyatı, 2008, 96 s.

milli identikliyin formalaşmasında dil amilini, dil və etnosun qarşılıqlı münasibətlərini filoloji aspektdən araşdırmışdır.

S.A.Əhmədova «Heydər Əliyevin dil siyasəti» əsərində Ulu Öndər Heydər Əliyevin Azərbaycan dilinin dövlət dilinə səviyyəsinə yüksəldilməsində rolunu işıqlandırmışdır.

T.İ.Hacıyeva "Qloballaşmanın dilə təsirinin linqvopolitoloji problemləri"əsərində məsələyə dilçilik nöqteyi-nəzərindən yanaşaraq linqvopolitologiyanın predmeti, dünyada dövlət dili təcrübəsinin linqvopolitoliji aspektləri, Azərbaycan dövlətçiliyi və dövlət dili siyasətinin əsas istiqamətlərini,Ulu Öndər Heydər Əliyevin linqivistik-hüquqi, sosio-linqivistik və linqvopolitoloji amillərə əsaslanan dil siyasətini, XX əsrin 90-cı illərində müstəqil Azərbaycanın dövlət dili siyasətinin azərbaycançılıq prinsipləri əsasında həyata keçirilməsi uğrunda apardığı hərtərəfli mübarizəni tədqiq etmışdır.

Beləliklə, problemin ayrı-ayrı aspektləri filoloji, linqivistik, sosiolinqivistik, politoloji, fəlsəfi aspektdən araşdırılmasına baxmayaraq müasir Azərbaycanda milli münasibətlərin formalaşmasında dövlət dili siyasətinin sosial-fəlsəfi aspekt-dən hərtərəfli təhlili sahəsində hələ də boşluqlar vardır

**Tədqiqatın obyekti** dil siyasəti, **predmeti** isə müasir Azərbaycanda milli münasibətlərin formalaşmasında dövlət dilinin rolunun sosial-fəlsəfi aspektdən öyrənilməsidir.

**Tədqiqatın məqsəd və vəzifələri**.Deyilənləri nəzərə alaraq qarşıya qoyulmuş ümumi məqsədi müəyyən etmək olar. Tədqiqatın məqsədi müasir, müstəqil de-mokratik Azərbaycanda dövlət dili siyasətinin millətlərarası münasibətlərdə tole-rantlığın bərqərar olması əsasında sosial-fəlsəfi təhlil etməkdir. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr yerinə yetirilməlidir:

-Müasir dövrdə etnolinqivistikada və sosiolinqivistikada dil amilinin sosial-fəlsəfi araşdırılması. Etnodil proseslərinin nəzəri-metodoloji əsaslarının təhlil edilməsi.Dil və dövlət dili siyasətinin Şərq və Qərb kontekstində müqayisəli təhlil edilməsi;

-Milli münasibətlər sistemində dövlət dili probleminə sosial-fəlsəfi aspektdən yanaşılması. Çoxmillətli ölkələrdə dövlət dilinin milli siyasət konsepsiyasının tərkib hissəsi kimi şərh olunması.Milli dövlətçilik şüurunun formalaşmasında dövlət dilinin yerinin və rolunun müəyyən edilməsi.Dövlət dili və milli-mədəni muxtariyyət probleminin qarşılıqlı münasi- bətlərinin təhlil edilməsi;

-Modernləşən Azərbaycanda dövlət dil siyasətinin fəlsəfi aspektdən tədqiq olunması;

-Azərbaycan dövlət dilinin inkişafında Ulu Öndər Heydər Əliyevin rolunun açıqlanması;

-Millətlərarası münasibətlərdə dövlət dilinin rolunun şərh olunması. Milli dil və mədəni muxtəlifliyin qarşılıqlı təsirinin araşdırılması.

**Tədqiqatın metodoloji əsaslarını** klassik sosial-fəlsəfi fikirdə və müasir tədqiqatçıların əsərlərində milli münasibətlər, dil siyasəti, etnolinqivistika və dövlət dilinə dair irəli sürülmüş müddəalar təşkil edir. Tədqiqatda eyni zamanda təhlil və sintez əldə olunmuş, nəticələrin ümumiləşdirilməsi zamanı tarixilik, məntiqilik, struktur-analiz metodlarından da istifadə olunmuşdur.

**Tədqiqatın metodlarına** gəldikdə burada sistemli yanaşma prisiplərinə cavab verən aşağıdakı metodlardan da istifadə olunmuşdur:

-dünyanın dil şəraitini və Azərbaycan dövlət dili siyasətinin müxtəlif inkişaf mərhələsindəki xüsusiyyətlərini müəyyən etməyə imkan verən tarixi metod;

-dil hadisəsinin təsirini müəyyən etməyə imkan verən linqivistik metod;

-dil və mədəniyyətin mürəkkəb qarşılıqlı təsirlərinin, həmçinin dillərin fəaliy- yətinin və rollarının xüsusiyyətlərini aşkar etməyə imkan verən analitik metod.

Dilin çoxmillətli və çoxmədəniyyətli cəmiyyətlərdə rolunu müəyyən edən aşağıdakı metodlardan da istifadə olunur;

-müxtəlif dərəcəli etnomədəni fərqlərin mövcudluğu şəraitində mədəniyyət-lərarası və dillərarası ünsiyyət vasitəsi kimi dövlət dilindən istifadənin spesifikli-yinin müəyyənləşməsi üçün zəruri olan komparativ metod;

-qloballaşma dövründə dillərarası və mədəni kommunikasiyalara müxtəlif dil və mədəni hadisələrin kompleks təsirinin qarşılıqlı bağlılığını aşkar etməyə imkan verən sistemli metod.

**Tədqiqatın elmi yeniliyi**.Azərbaycanda milli münasibətlərin formalaşmasında dövlət dili siyasətinin sosial-fəlsəfi aspektdən hərtərəfli, sistemli tədqiqinə cəhd edilmişdir. Dissertasiya işinin elmi yeniliyinin əsas elementləri aşağıdakılardan ibarətdir:

-müəyyən edilmişdir ki, dil və təfəkkürün qarşılıqlı əlaqəsi və asıllığıhaqqında müxtəlif hipotezin mövcudluğu idrak prosesləri və dilin fəailiyyəti arasında sıx bağlılıq olduğunu göstərir;

- dil milli mədəniyyətin tərkib hissəsi olub bu mədəniyyətin təkcə maddi tərəfini deyil, onun tarixi, iqtisadi və digər determinantının öyrənilməsini də tələb edir. Bu baxımdan etnososiolinqivistikada dillə bağlı konsepsiyalar, milli siyasətin formalaşmasında dövlət dilinin informativ-kommunakativ rolu araşdırılır;

- Azərbaycan dövlət dilinin milli və beynəlxalq səviyyədə real ünsiyyət vasitəsinə çevrilməsi nəticəsində onun nəzəri və indiyədək elmi dövriyyəyə cəlb olunmamış faktiki materiallar əsasında sistemli şəkildə praktiki əhəmiyyəti göstərilir;

- Çoxmillətli Azərbaycanda milli dövlətçilik şüurunun formalaşmasında milli siyasət konsepsiyasının tərkib hissəsi olan dövlət dili problemləri, bilinqivizm, multilinqivizmin qarşılıqlı münasibətləri, ölkəmizdə yaşayan müxtəlif xalqların və etnik qrupların qarşılıqlı mədəni zənginləşməsində, milli həmrəyliyin və birliyin möhkəmlənməsində Azərbaycançılıq ideologiyasının əsas nüvəsi kimi Azərbaycan dövlət dilinin rolu yeni məna çalarları prizmasından tədqiq olunur.

**Dissertasiya işinin mənbə bazasını** xarici və ölkə alimlərinin mövzu ilə bağlı nəzəri müddəaları, müxtəilf varislik və müasirlik kontekstindən yazılmış konseptual əsərlər təşkil edir. Həmçinin Ulu Öndər Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət dilinə dair dərin məzmunlu fikir və mülahizələri də tədqiqat işinin əsas mənbələrindəndir.

Milli münasibətlər və dövlət dili probleminin ümumfəlsəfi aspektləri eyni zamanda R.Mehdiyev, İ.Məmmədzadə, S.Xəlilov, A.Rüstəmova, Ə.Abbasov, Z.Hacıyev, M.Rzayev, İ .Rüstəmov və başqaları tərəfindən araşdırılmışdır.

**Tədqiqat işinin nəzəri əhəmiyyəti.**Azərbaycanda milli münasibətlərin for-malaşmasında dövlət dili siyasətinin sosial-fəlsəfi aspektdən tədqiqının nəzəriəhəmiyyəti ondan ibarətdir ki,bu araşdırmalar milli münasibətlər və dövlət dili si-yasəti liə əlaqədar problemlərin daha da dərindən təhlil olunmasına zərurət yaradır. Dissertasiyada əldə edilmiş nəticələr milli münasibətlərə və dövlət dili siyasətinə dair təsəvvürləri xeyli dərəcədə dərinləşdirir və ictimai-humanitar elmlər üçün metodoloji əhəmiyyət kəsb edir.

**Tədqiqatın praktiki əhəmiyyəti** ondan ibarətdir ki, təqdim olunan tədqiqatın nəticələrindən dilçiliyin, etnolinqivistikanın, sosiolinqivistikanın, tarixin, mədə-niyyətşünaslığın və fəlsəfənin bəzi bölmələrinin tədrisi və tədqiqi zamanı istifadə oluna bilər.

Tədqiqatın nəticələri dilin təkmilləşdirilməsinə dair yeni qanunlvericilik bazasının yaradılması zamanı faydalı ola bilər. Bütün bunlar isə çoxmillətli ölkələrdə dövlət dilinin səmərəli fəaliyyətini göstərir.

**İşin aprobasiyası**. Dissertasiya işi AMEA-nın Fəlsəfə İnstitutunun "Sosial fəlsəfə" şöbəsində yerinə yetirilmişdir. İşin nəticələri beynəlxalq, respublika elmi konfranslarında məruzə edilmiş və çap olunmuş -dur.Həmçinin dissertasiyanın əsas müddəaları və nəticələri aşağıdakı eimi konfranslardakı: "Qloballaşma şəraitində kulturoliji innovasiyalar və sosial-mədəni inkişaf"mözusunda keçirilən beynəlxalq konfransda (Bakı, 2002), AMEA –nın Fəlsəfə İnstitutunda YUNESKO-nun təsis etdiyi "Umumdünya Fəlsəfə günü"nə həsr olunmuş Beynəlxalq Elmi-nəzəri konfransda (Bakı, 2012) müəllif tərəfindən edilmiş çıxış və məruzələrdə öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu**. Tədqiqat işi giriş, üç fəsil, doqquz yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı kifayət qədər geniş əsaslandırılır, milli siyasətin formalaşmasında dövlət dilinin rolunun əhəmiy-yəti göstərilir, mövzunun işlənmə dərəcəsi, xüsusilə Qərb, Şərq, Azərbaycan tədqiqatçılarının problemin ayrı-ayrı aspekt -lərinə dair yanaşmaları araşdırılır. Tədqiqatın məqsədi və vəzifələri düzgün müəyyənləşdirilir, predmeti və obyekti kontkret göstərilir. Dissertant elmi yeniliyi geniş və hərtərəfli, əhatəli təqdim edir, işin elmi-nəzəri, praktiki-tətbiqi əhəmiyyətini, aprobasiyasını, strukturunu göstərir.

Tədqiqat işinin "**Müasir etnolinqivistikada dil amili və onun sosial-fəlsəfi problemləri"** adlanan birinci fəslinin ***"Müasir dövrdə etnodil proseslərinin nəzəri-metodoloji əsasları"*** adlanan birinci yarımfəslində dil, şüur təfəkkürün qarşılıqlı münasibətlərinin etnik xüsusiyyətləri, "etnik", "milli", "etnodil prosesləri"nin fəlsəfi mahiyyəti açılır. Etnosun formalaşmasına təsir edən tarixən dəyişmiş, yeniləşmiş, təkmilləşmiş amillərin-ərazi, dil, din, mədəni-mənəvi, milli-psi-xoloji birlik, siyasi təsisatlar, dövlət və milli dövlətçilik təfəkkürünün mühüm rolu araşdırılır.

"Etnik" məfhumun tarixi insan birlikləri daxilində (millətlərin əmələ gəlməsindən əvvəlvə sonra ), millətlər, xalqalar, milli- etnik qruplar arasında baş verən hadisələr (assimliyasiya, konsolidasiya) tədqiq

olunur,“milli” məfhumunun tarixi insan birliklərinin keyfiyyətcə yeni mərhələsini ifadə etdiyi göstərilir.

Bu yarımfəsildə fəlsəfi, sosioloji və etnoqrafik ədəbiyyatda işlənən “etnos”“etnik əlamət”anlayışlarının mənaları və qarşılıqlı münasibətiəri aydınlaşdırılır.Eyni zamanda “etnik birlik”, “etnik qrup”, “etnik psixologiya” və s. kimi terminlərin etnoqrafik, sosioloji, fəlsəfi ədəbiyyatda uyğun terminlər kimi işləndiyi,etnosların oxşar cəhətlərə, obyektiv xüsusiyyətlərə malik olduğuqeyd edilir.

Bu yarımfəsildə müasir dünyanın ən kəskin problemlərindən biri kimi etnik dillərin inkişaf səviyyəsi, etnomədəni proseslərin tərkibində baş verən etnodil sahə-sindəki dəyişikliklər, etnodil prosesinin əsas istiqamət meyilləri, dilin inteqrasiyası, dildaxili inteqrasiya, dillərin differensiallaşması, dilin regionallaşması, etnodil coğrafiyası və məkanı, dilin sıxışdırılması məsələləri də araşdırılır.

Birinci fəslin ***“Etnolinqvistik proseslərdə dil probleminə mövcud yanaşmaların konseptual təhlili”***adlanan ikinci yarımfəsilində etnolinqivistik pro-seslərdə dil probleminə mövcud yanaşmalar konseptual şəkildə təhlil edilir, linqvo-kulturologiya, etnolinqivistika, koqnitiv linqivistika, linqvokonseptologiya, etno-psixologiya, etnopsixolinqvistika,mədəniyyətlərarası kommunikasiya, linqvoölkəşünaslıq, etnosemiotika, etnogenez linqvistikakimi elmi istiqamətlərin dil və mədəniyyətin qarşılıqlı münasibətlərinin müxtəlif aspektlərini tədqiq etdikləri nəzərə çatdırılır. Qeyd edilir ki, mədəniyyət dəyişdikcə dil də dəyişmiş, milli mədəniyyətin əsas tərkib hissəsi kimi dilin,etnosun dünyagörüşüvə ədəbi dil qarşılıqlı əlaqə şəraitində inkişaf edir. O da diqqətə çatdırılır ki, etnolinqivistik elmi istiqamətlərin əksəriyyəti dil və mədəniyyətin qarşılıqlı münasibətlərini vəhdət halında nəzərdən keçirirlər.

Bu yarımfəsildə XX əsrdə linqvistik elmlərə münasibətdə aşağıdakı yeni fəlsəfi konsepsiyaların yarandığı, dilin fəlsəfənin tədqiqat obyektinə çevrildiyi diqqətə çatdırılır:

1. Neopozitivizm;
2. Psoxoanaliz;
3. Sosioloji dilçilik;
4. Sosial linqivistika.

A.Rüstəmova sosial linqivistikanın predmetinin məhdudlaşdırılmasının əleyhinə çıxaraq qeyd edir ki, müasir dövrdə mövcud olan təxminən 500-dən çox elmi istiqamətin hər biri insan fəaliyyətinin spesifik sahələrini təmsil edir. Azər-baycan alimi “dil siyasətinin sosial faktor kimi mahiyyətinin ideologiya ilə müəyyənləşdiyini”, “eləcə də ideoloji- si-

yasi məzmuna malik terminologiyanın yaradıldığını" diqqətə çatdırır və yeni terminoloji sistemlərin yaranmasının, dilin leksik-semantik inkişafının zəruriliyini qeyd etməklə yanaşı, sosiolinqvistikaya təsir edən sosial faktorları da aşağıdakı kimi təsnif edir:

"-sosial-iqtisadi formasiyalarla bağlı sosial faktorlar;

-qlobal mahiyyətli, kütləvi ünsiyyət, təhsil sistemi və s. ilə şərtlənən ayrı-ayrı sosial faktorlar;

-dillərin qarşılıqlı münasibəti ilə şərtlənən sosial faktorlar;

-ideoloji mahiyyət daşıyan sosial faktorlar (dil siyasəti, ideologiya və s.);

-ictimai həyatın dərk edilməsində etik, estetik, mənəvi amilləri əhatə edən sosial faktorlar;

-dilin sosial differensiasiyası ilə bağlı sosial faktorlar"[1].

Müəllif haqlı olaraq bu təsnifatın daha geniş mövzunu əhatə etdiyini gös- tərir.

Eyni zamanda dilin statusu aydınlaşdırılır, dövlət dili siyasətinin mədəniyyətin tərkib hissəsi kimi cəmiyyət miqyasında təcrübədə tətbiqi məsələləri tədqiq olunur. Azərbaycan tədqiqatçısı, görkəmli dilçi-alim Ə.Z.Abdullayev dil siyasətinin geniş məzmun kəsb etdiyini göstərərək yazır: «Dil insanlar arasında ünsiyyətin ən mühüm vasitəsidir, ünsiyyət isə ictimai əlaqələrin təkcə milli xətti üzrə deyil, insan münasibətlərinin bütün tellərilə gedir» [2] .Göründüyü kimi, müəllif dil siyasətinin cəmiyyətin bütün sahələrini əhatə etdiyini göstərir. Ə.Abdullayev dövlət dili siyasətinin cəmiyyətin dil həyatının inkişafı proseslərinə şüurlu, məqsədyönlü təsir göstərməsinin əsas cəhətlərini daha da konkretləşdirir. Dövlət dili siyasəti «dövlət fəaliyyətilə bağlıdır və qanun qüvvəsinə malikdir».[3] «Dövlət dil siyasəti» anlayışı, «milli-dil siyasəti ilə» və «dil quruculuğu» anlayışları ilə bağlı olsa da, bunlar məzmunca bir-birindən fərqli anlayışlardır. Milli dil siyasəti daha çox millətlərarası münasibətlərə aid olub millətlərarası və beynəlxalq ünsiyyət məsələlərini tənzimləyir, nəzəri fəaliyyətə, maarifə, mədəniyyətə aid məsələlərə aiddir. Beləliklə, burada «dövlət dili siyasəti», «milli-dil siyasəti» və

---

[1]Rüstəmova A.. Sosial linqivistikanın fəlsəfi problemləri. Bakı: Adiloğlu, 2005, s.28

[2] Abdullayev Ə.Z. Dil siyasəti və sosial tərəqqi. Bakı: Azərnəşr, 1985, s.89

[3] Yenə orada, s.92

«dil quruculuğu» anlayışlarının fəlsəfi mahiyyəti açılır,«dil siyasəti» və «dil quruculuğu» anlayışlarının qarşılıqlı münasibətləri izah olunur.

Dissertasiyanın birinci fəslinin***"Dil və dövlət dili siyasəti Şərq və Qərb kontekstində: müqayisəli təhlil"*** adlı üçüncü yarımfəsilində Şərq və Qərb kontekstində dil və dövlət dili müqayisəli təhlil edilir.

Bu yarımfəsildə Şərq və Qərb mədəniyyətlərinin zənginliyi, öz dillərinin müxtəlifliyilə dünya sivilizasiyasının əsas nüvəsini təşkil etdiyi, Qərbdə rasiona-lizmin, Şərqdə ənənəviliyin, Qərbdə elmin dindən ayrılması, rasionalizmin empi-rizm ilə birləşməsi, Şərqdə dinin güclü olması göstərilir. Eyni zamanda Qərbdə ingilis, Şərqdə ərəb, türk və s. dillərin bir-birilərlə qarşı-qarşıya dayandığı, ingilis dilinin qlobal, dünya dili, ərəb dilinin "Şərqin latını" hesab olunduğu diqqətə çatdı-rılır.

Burada Şərq və Qərb dilləri müqayisə edilərkən onların fərqli və oxşar cəhətləri də qeyd edilir. Tədqiqat işində diqqətə çatdırılır ki, Qərb mədəniyyətində dildə, elmdə vahidlik ifadə olunmur, Şərqdə isə əsas fərdiyyətə, vahidə diqqət yetirilir. Qərbdə mədəniyyət "humanizm"ə əsaslanır. Şərqdə isə həmin anlayış panteist xarakter daşıyır.

Avropada intibahdan sonra bütün Qərbdə latın dilinln ana dili sta-tusunu qazanması, indi isə bu funksiyanın ingilis dilini öz üzərinə götür-məsi, Şərqdə dövlət dili siyasətinin dünya mədəniyyəti və sivilizasiyası ilə bağlı olan, özündə milliliyi və ümumbəşəriliyi birləşdirən sosial bir proses olduğu diqqətə çatdırılır.

Qeyd edilir ki, dövlət dili siyasəti cəmiyyətin əsas atributların-dan olub, həm nəzəri-praktiki, həm də ideoloji əhəmiyyət kəsb edir. Ək-sər ölkələrdə dövlət dili siyasətinin əsasını dilin vəhdəti və birdillilik problemi təşkil edir.

Bu yarımfəsildə dövlət dili siyasətinin tarixinə nəzər salarkən müxtəlif Qərb ölkələrində, o cümlədən Avropada bu və ya digər dilin dövlət və rəsmi statusunun gerçəkləşməsi yeni tarixi dövrdə əvvəlcə fransız dilinin, sonra isə ingilis dilinin Avropada ən populyar dillərə çev-rildiyi, sonra isə alman və rus dillərinin geniş yayıldığı və s. məsələlər tədqiqat süzgəcindən keçirilir.

Dissertasiyanın "**Dövlət dili problemi milli münasibətlər sistemində: sosial-fəlsəfi yanaşma"** adlanan ikinci fəslin ***"Çoxmillətli ölkələrdə dövlət dili problemi milli siyasət konsepsiyasının mühüm tərkib hissəsidir"***adlanan yarımfəslində çoxmillətli ölkələrdə milli siyasət, milli azlıqlar, xalqların və millətlərin qarşılıqlı münasibətlərinin formalaşmasında dölət dili siyasətinin düzgün aparılmasının əhəmiyyəti göstərilir.Eyni zamanda bu yarımfəsildə milli münasibət-lərin dövlətlərə-

rası əlaqələrlə qarşılıqlı təsiri, millətlərarası anlaşmada uğurlu dil siyasətinin aparılmasının mühüm rol oynadığı, milli siyasətin mühüm tərkib hissəsi olan dil siyasəti, dövlət dili və milli azlıqların dili arasında münasibətlərin müsbət şəkildə tənzimlənməsi və s.məsələlərsosial-fəlsəfi aspektdən araşdırılır. Ə.Tağıyev və M.Şükürovun belə fikirlərilə razılaşmaq olar ki, onlar milli siyasəti millətlər və xalqlar arasındakı qarşılıqlı münasibətlərin dövlətin müvafiq sənədlərində və qanunvericilik aktlarında təsbit olunmuş şəkildə tənzim olunması üzrə məqsədyönlü fəaliyyəti kimi səciyyələndirir, onun aşağıdakı konseptual müddəalarını göstərirlər: "1.Xalqların bərabərliyi; 2. Bütün xalqların mənafelərinə və dəyərlərinə hörmət; 3. Qarşılıqlı faydalı əməkdaşlıq; 4. Şovinizmin tənqidi; 5.Milli amilin, coğrafi amilin, demoqrafiya və tarixi xüsusiyyətlərin nəzərə alınması; 6. Din, psixologiya, yerli və gəlmə əhalinin nisbətinin gözlənilməsi "[1].Şübhəsiz ki, burada - milli siyasətdə dil amilinin nəzərə alınması zəruri məsələdir. Milli münasibətlər sistemində dövlətin dil siyasəti milli və beynəlxalq normalara, demokratik dəyərlərə uyğun aparılmalıdır. Dövlət mühüm amil olmaqla dilin inkişafına mühüm təsir göstərə bilər. Dövlət özünün yeritdiyi məqsədyönlü dil siyasətilə dili daha da inkişaf etdirə və zənginləşdirə bilər.

Burada milli siyasətdə dil amilinin nəzərə alınması, milli münasibətlər sistemində dövlətin dil siyasətinin milli və beynəlxalq normalara, demokratik dəyərlərə uyğun aparılmasının zəruriliyi, dövlətin dilin inkişafına güclü təsir göstərə bilməsi, dil siyasətinin - dövlətin yeritdiyi milli və dini-konfessional siyasətin tərkib hissəsi və çoxmillətli dövlətlərdə mühüm əhəmiyyət kəsb etməsi də araşdırılır.

Qeyd edilir ki, Azərbaycan Respublikası çoxmillətli hüquqi dövlət və demokratik vətəndaş cəmiyyəti qurduğu, tolerant bir ölkə olduğu üçün dövlət səviyyəsində dil siyasəti aparıldığından burada dövlət dili ilə yanaşı milli azlıqların dillərinin tam azad inkişafı üçün şərait də yaradılmışdır. Bütövlükdə Azərbaycan dili həm dövlət dili, həm ədəbi dil, həm xalq dili - ümumxalq danışıq dili və millət-lərarası ünsiyyət dili kimi çıxış edir.

Bu yarımfəsildə göstərilir ki, dil xalqın sosial yaddaşının bir hissəsidir, o təkcə nitq fəaliyyətinin deyil, həm də idrak fəaliyyətinin, mənəvi davranış fəaliyyətinin ümumi əsaslarını təşkil edur. Müxtəlif dillərdə danışan insanlar, müxtəlif mədəniyyətlərə mənsubdurlar və onlar dünya-

---

[1]Tağıyev Ə., Şükürov M. Etnopolitologiya. Bakı: Elm, 2001, s.36-37

nı müxtəlif cür qavrayırlar. Hər bir mədəniyyətin məzmunu onun dilinin köməyi ilə ifadə edilə bilər.

Dissertasiyanın ikinci fəslinin *"Milli dövlətçilik təfəkkürünün formalaşması prosesində dövlət dili siyasətinin əsas məzmunu və başlıca istiqamətləri"* adlanan yarımfəslində göstərilir ki, dil siyasəti xalqın etnik şüurundan milli dövlətçilik təfəkkürünə keçməsində həlledici rol oynayır. Hər bir etnos üçün spesifik milli dövlətçilik təfəkkürü, onu fərqləndirən xüsusiyyətlər, fərqli və oxşar cəhətlərin vəhdəti, milli mənsubluq bir-birilə qarşılıqlı əlaqədədır.

Diqqətə çatdırılır ki,milli dövlətçilik təfəkkürü dillə birlikdə əsrlər boyu xalqın milli şüurunun ayrılmaz tərkib hissəsi kimi onu öz ideallarına, müstəqilliyinə qovuşdurmuş,məhz müstəqillik dövründə dil siyasəti sahəsində də, dövlərçilik təfəkkürünün formalaşması sahəsində də intibah baş vermişdir.Bu yarımfəsildədövlətçilik təfəkkürü və dil şüurunun dövlətsizlik şəraitində də yaşayıb inkişaf edə bildiyi, dövlətçilik ənənələri, dövlətçilik təfəkkürü, dil, etnik, milli hissin vəhdət halında qorunub saxlanması məsələləri də şərh olunur.

Tədqiqat işində Cənubi Azərbaycanda dövlətçilik təfəkkürü və dil şüurunun milli özündərkin inkişafdan geri qalmasının, Şimali Azərbaycanda isə Rusiya imperiyasına daxil olduğu üçün dil, dövlətçilik duyğusu və təfəkkürünün zəifləməsinin, XX əsrin əvvəllərində demokratik dövlət quruculuğunun ömrünün az olduğuna görə dövlətçilik təfəkkürünün tam formalaşa bilməməsinin, yalnız müstəqillik dövründə dilin, etnik və milli şüurun, dövlətçilik təfəkkürünün inkişafına geniş şərait yarandığı tədqiqata cəlb olunmuşdur. O da vurğulanır ki, dövlət dili siyasətinin istiqamətlərindən biri dövlətçilik ideologiyasının formalaşdırılmasıdır. Hər bir vətəndaşda vətənçilik əxlaqının təşəkkülü, vətənin, xalqın, dövlətin mənafeyinin şəxsi mənafedən üstün tutulması, Azərbaycan xalqının milli dövlətçilik hisslərinin formalaşdırılmasının təmin edilməsi uğurlu dövlət dili siyasətinin aparılmasından çox asılıdır. Azərbaycanda müstəqil dövlət quruculuğu prosesləri inkişaf edib möhkəmləndikcə dil siyasəti daha qətiyyətlə və uğurla həyata keçirilir.

Burada bir məsələ də nəzərə catdırılır ki, Aərbaycan dövlət dilinin həyata keçməsilə xalqın düşüncə tərzində dövlətçilik təfəkkürü və siyasi mədəniyyətində bir təbəddülat yaranır. Qeyd olunur ki, bu gün dövlət dilinin daha da təkmilləşdirilməsi zərurətə çevrilmiş, bütün sahələrdə müstəqil Azərbaycan dövlətinin strateji fəailiyyət proqramları bərqərar olmuş, milli dövlət dilinin daha da inkişaf etməsi, dövlət dilinin milli dövlətçilik təfəkkürünün formalaşmasını daha da gücləndirməsi, onun

dövlətin, millətin mənafeyini daha möhkəm ifadə etməsi üçün əlverişli şərait yaranmışdır .

Bu yarımfəsildə diqqət yetirilən məqamlardan biri də Aərbaycan dilinin fəlsəfi, ictimai-siyasi fikir ənənələrilə bağlı olduğuna, ədəbi dil, elmi dil, diplomatik dil funksiyalarını yerinə yetirdiyinə görə, dünya dilləri arasında layiqli yer tutaraq dövlət dili, dövlətçilik dili səviyyəsinə yüksələ bilməsinin qeyd edilməsidir. Diqqətə çatdırılır ki, Aərbaycan xalqı özünün milli dövlətçilik ənənələrinə, dövlətçilik təfəkkürünə və təcrübəsinə malik olmaqla öz milli dövlət dilini və dövlətçiliyini formalaşdırıb inkişaf etdirə bildi.

Dissertasiyanın ikinci fəslinin ***"Dövlət dili və milli-mədəni muxtariyyət problemi"*** adlanan yarımfəslində qeyd olunur ki, dünyada müxtəlif millətlər, xalqlar, milli azlıqlar və etnik qruplar müəyyən siyasi, iqtisadi və ailə-məişət amillərinin təsiri nəticəsində daim bir-birilə qarışıq şəkildə yaşamaq məcburiyyə-tində qalır, bəzi xalqlar öz əzəli torpaqlarından və vətənlərindən ayrılaraq böyük millətlərin tərkibində milli azlıq kimi mövcud olurlar. Milli diasporalar öz dillərini, mədəniyyətlərini qoruyub saxlayaraq, yaşadıqları ölkənin iqtisadi, siyasi və mədəni inkişafında əhəmiyyətli rol oynayırlar.

Bu yarımfəsildə dövlət dili, milli münasibətlər və milli mədəni-muxtariyyət probleminin qarşılıqlı münasibətlərini fəlsəfə ilə yanaşı, tarix, sosiologiya, politologiya elmlərinin də tədqiq etdikləri, dünyada, o cümlədən, postsovet məkanında, həmçinin Azərbaycanda demokratik cəmiyyətin təşəkkülü və inkişafı şəraitində milli mədəni- muxtariyyət və dilin, milli mədəniyyətin qorunub saxlanması probleminin ciddi maraq doğurduğu vurğulanır. Mədəni muxtariyyət ideyası (bəzi hallarda onu eksərazi də adlandırırlar) milli münasibətlərin tərkib hissəsi olub dövlət dili ilə də sıx əlaqədar olan məsələdir.Milli problemin həllinə eksərazi yanaşma Qərb, MDB və Azərbaycanın elmi-siyasi dairələrində daim diskussiya yaradan problemdir.

Xatırlanır ki, keçmiş SSRİ-də dövlət dili və milli-mədəni muxtariyyətin qarşılıqlı münasibətləri məsələsini bolşevik rəhbərləri və nəzəriyyəçiləri V.I.Lenin və İ.Stalin işləyib hazırlamışlar ki, məhz onların nəzəri baxışları sovet milli-dövlət quruluşu və milli münasibətlərinin əsasını təşkil etdi.

Tədqiqat işində üç bir-birilə qarşılıqlı vəhdətdə olan məsələnin – "dil", "muxta-riyyət" və "müstəqillik" probleminin üzə çıxarılmasına diqqət yetirilir. Burada dil probleminin separatist hərəkata, millətçiliyə rəvac verən bir amil olduğu, kiçik xalqlardan bəzilərinin öz dillərinin və

mədəniyyətlərini yaşadıqları dövlətin prioritetlərilə yanaşı qoymağa cəhd etdikləri, milli-mədəni muxtəriyyət ideyasının milli münasibətlərin tərkib hissəsi kimi millətlərin öz müqəddəratını təyinetmə hüququ ilə tənzimləndiyi və s. məsələlər tədqiq olunur.

Tədqiqat işinin **"Modernləşən Azərbaycanda dil siyasəti və onun fəlsəfi aspektləri"** adlanan üçüncü fəslində Azərbaycanda dövlət dilinin təşəkkülü və inkişafı, millətlərarası münasibətlərdə dövlət dilinin mühüm ünsiyyət funksiyası, eləcə də multimədəni cəmiyyətdə mədəni müxtəliflik şəraitində milli dilin xalqların qarşılıqlı zənginləşməsində rolu fəlsəfi tədqiqata cəlb olunur. Dissertasiyanın üçüncü fəslinin birinci yarımfəsli ***"Azərbaycanda dövlət dilinin yaranması prosesi: tarixilikdən müasirliyə doğru"*** adlanır.Bu yarımfəsildə Azərbaycan dilinin təşəkkül tarixi təsnifatlaşdırılır. Qeyd edilir ki, respublikamızın dilçi alimləri arasında Azərbaycan dövlət dilinin tarixi təşəkkülü və onun inkişafının əsas mərhələləri, təsnifatlaşması ilə bağlı müəyyən qədər fikir ayrılığı mövcud olsa da, əksər tədqiqatçıların fikrincə dil sahəsində son dərəcə mühüm və həlledici sayılan bu proses bilavasitə dörd dövrü əhatə etmişdir:

1. Səfəvilər dövrü
2. Azərbaycan Xalq Cümhuriyyəti dövrü
3. Sovei dövrü (ziddiyyətli dövr)
4. Ən yeni dövr – (1991-ci ildən sonra əldə edilmiş müstəqillik dövrü).

Diqqətə çatdırılır ki, Səfəvilər dövründə Azərbaycan dili bir çox mühüm sahələrə tətbiq edilərək dövlət dili statusu qazanmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət dili funksiyasını Azərbaycan türkcəsinin yerinə yetirdiyi, lakin digər millətlərin nümayəndələrinin rus dilində çıxış etmələri məqbul hesab olunduğu və tədricən onların da dövlət dilini-Azərbaycan türkcəsini məcburi öyrənmələrinin zərurətə çevirməsi, sovet dövründə isə respublikanın yürütdüyü dil siyasəti tarixinin üç mərhələyə bölündüyü göstərilir:

Bu dövrlər içərisində dövlət dili siyasətinin inkişafında demokratik (1920-1930-cu illərin ortaları), irtica (1930-cu illərin ortalarından-1950-ci illərin ortalarına qədər) və liberal mərhələyə (1950-ci illərin ortalarından 1980-ci illərin sonu, 90-cı illərin əvvəllərinə qədər) ayrılır.[1]

---

[1]Əhmədova S.Heydər Əliyevin dil siyasəti.Bakı:MBM nəşriyyatı, 2008, s.21

Bu yarımfəsildə müstəqillik dövründə Azərbaycan dilinin ölkənin bütün idarələrində geniş tətbiqi, xaricilərin dövlət dilinə hörmət etmələri, KİV-də yalnız dövlət dilinin işlənməsi, dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilməsi üçün ciddi tədbirlər görülməsi qeyd edilir.

Nəzərə çatdırılır ki,əsrlər boyu əzəli torpaqlarımızın müxtəlif imperiyaların təsir dairəsində olması, milli və mənəvi dəyərlərimizə ayrı-ayrı siyasi və güc dairələri tərəfindən mənfi təsir edilməsi, milli mənlik şüurunun inkişafının ləngiməsi və bunun da nəticəsində son olaraq dövlət müstəqilliyimizin itirilməsi ana dilimizin dövlət dili səviyyəsinə qalxmasına imkan verməmişdir.

Tədqiqat işinin üçüncü fəslinin ***"Dövlət dili millətlərarası münasibətlərdə mühüm ünsiyyət vasitəsi kimi"*** yarımfəslində dil millətin və dövlətin elə bir atributu hesab edilir ki, onsuz millətin mövcudluğundan söhbət gedə bilməz. Millət dövlətsiz, ərazisiz yaşaya bilər, dilsiz məhv ola bilər. Nəzərə çatdırıiır ki, dilin qüdrəti, dilin gücü onun dövlət dili kimi fəaliyyətində daha geniş, daha əhatəli özünü təzahür etdirir. Dövlət dili həmin dövlətin ərazisində yaşayan bütün xalqların, millətlərin, etnosların, azsaylı etnik qrupların ünsiyyət vasitəsinə çevrilir, bütün ərazidə idarəetmə funksiyasını, siyasi, sosial, iqtisadi, mədəni-mənəvi sahələrdə tənzimlənməni həyata keçirir. Dövlət dili bütün rəsmi yazışmaların aparıldığı, dövlət sənədlərinin yazıldığı dildir.

Bu yarımfəsildə Azərbaycanın dövlət dili siyasəti haqlı olaraq Azərbaycan dövlətçilik və milli tarixinin tərkib hissəsi kimi araşdırılır. Azərbaycan dilinin bütün Qafqazda, Yaxın və Orta Şərqin bir çox ərazilərində etno-mədəni ünsiyyət funksiyasını yerinə yetirən universal və beynəlxalq bir dil olduğu da diqqətə çatdırılır.

Burada göstərilir ki, dövlət müstəqilliyi əldə etdikdən sonra Azərbaycan dövlət dili ümumdövlət, ümumxalq, beynəlxalq, diplomatik danışıqlar dili kimi öz fəaliyyət və təsir dairəsini xeyli genişləndirmiş, onun siyasi, iqtisadi, mədəni və mənəvi təsir qüvvəsi kifayət qədər güclənmişdir. Bu gün Azərbaycan dövlət dili dünyanın müxtəlif qitələrinə və ölkələrinə bu və ya digər obyektiv və subyektiv səbəblər üzündən səpələnmiş, az qala doğma ana dilini unutmuş, uzun illər yaşadıqları ölkələrin ərazisində yad adət-ənənələrə və yad dillərin təsirinə və təzyiqinə məruz qalmış 50 milyona yaxın dünya azərbaycanlılarının həmrəylik, ünsiyyət vasitəsidir. Bir millətdən olan, lakin müxtəlif xalqların və dövlətlərin tərkibində yaşayan müxtəlif etnopsixoloji amillərin daşıyıcısı olan bu insan birliklərinin bir-biri ilə danışdığı dil Azərbaycan milli dövlət dilidir.

Rəsmi dövlət dili statusu almış Azərbaycan dili istər ölkə daxilində, istərsə də ölkədən xaricdə diplomatik danışıqlarda, rəsmi yığıncaqlarda və tribunallarda hər cəhətdən dolğun, mənalı, təsirli nitq mədəniyyətinə görə başqa dövlət dillərindən seçilir və diplomatik ünsiyyət vasitəsi kimi istifadə edilir. Dövlət dilimizin beynəlxalq nüfuzu isə onun bilavasitə dövlət daxilindəki nüfuzu ilə bağlıdır. Öz müasir səviyyəsi, zərgər dəqiqliyi ilə cilalanmış qrammatik quruluşu, zəngin söz fondu ilə seçilən Azərbaycan dövlət dili təkcə ünsiyyət vasitəsi deyil, həm də diplomatik danışıqlar dilidir.

Dissertasiyanın ***"Milli dil və mədəni müxtəlifilk ideyası: qarşılıqlı təsir və zənginləşmə müstəvisində"*** adlanan yarımfəslində müasir qloballaşma dövründə mədəniyyətlərin müxtəlifliyi şəraitində yaşayan çoxmillətli, çoxdilli ölkəmizdə Azərbaycan dili xalqlararası ünsiyyət vasitəsi olmaqla yanaşı, burada yaşayan müxtəlif etnosların mədəniyyətlərinin ümumazərbaycan mədəniyyəti kontekstində öyrənilməsinin, onların Azərbaycan milli mədəniyyəti çərçivəsində bir-birilərinin mədəniyyətinə bələd olmasında, eləcə də həmin etnosların ümumdünya mədəniyyətinə qovuşmasında əsas rol oynadığı diqqətə çatdırılır.

Qloballaşma dövründə Azərbaycan dilinin təkmilləşdirilməsi üçün aşağıdakı istiqamətlərdə dil siyasəti həyata keçirilir:

1.Ədəbi dilin müstəqillik qazandıqdan sonra qloballaşmanın dilə təsiri sayəsində yeniləşən funksional üslubların inkişafı üçün müvafiq yeni linqivistik baza təkmilləşir;

2. Yazılı ədəbi dillə xalq danışıq dili arasındakı fərq minimuma endirilir;

3. Ədəbi dilin lüğət tərkibinin milli mənbələr əsasında zənginləşməsinə nail olunur;

4. Qloballaşma şəraitindı daha da genişlənən dillərin kontaktı zamanıdil normalarına tarixi prosesin təsirinə nəzarət gücləndirilir.

Tədqiqat işində qloballaşma şəraitində milli mədəniyyətlərin özünəməxsus- luğunun, milliliyinin ümumbəşəri dəyərlərlə zənginləşməsinin əsas amillərindən biri kimi dil hərtərəfli tədqiq olunur.Nəzərə çatdırılır ki,dil təkcə milli mədəniy-yətlərə təsir etmir, o həmçinin dövlət dili kimi idarəetmə funksiyanı daşıyır, milli siyasətdə əsas rol oynayır, millətlərarası, dövlətlərarası münasibətləri də tənzim-ləyir. Azərbaycançılıq etnik-millilik və ümumbəşəriliyin, multikulturalizmin, tolerantlığın təcəssümüdür. S.Xəlilov azərbaycançılığın əsas atributlarından olan Azərbaycan dilinin "dövlət dili" kimi anlamının iki fərqli mənasının nəzərə alınmasını tövsiyə edir: "Hər hansı bir dilin hüquqi aktla «dövlət dili»

elan olunması heç də bütün sahələrdə ancaq həmin dildən istifadə olunmasını nəzərdə tutmur. Elmdə, sənətdə, iqtisadiyyatda, ticarətdə, özəl şirkətlərdə insanlar ünsiyyət dili seçməkdə azaddırlar. Söhbət dövlət idarələrindən, rəsmi dövlət tədbirlərindən, rəsmi yazışmalardan gedir. Dövlət dilini bilmək tələbi məcburi akt kimi ancaq dövlət məmurlarına, vəzifəli şəxslərə tətbiq oluna bilər… Azərbaycan dilində çox müxtəlif dil üslubları vardır ki, dövlət idarələrində bunlardan birini – rəsmi dil üslubunu xüsusilə mükəmməl bilmək tələb olunur”[1]. Müəllif “dövlət dili”ni məhz rəsmi dil üslubu mənasında işlədir və gostərir ki, Azərbaycan dilini həm formalaşdırmaq, həm də həyata keçirmək, tətbiq etmək lazımdır.

Bu yarımfəsildə millətlərarası ünsiyyət vasitəsi olan Azərbaycan dili zəngin tariximiz, mədəni ənənələrimiz, multikulturalizm və tolerantlıqla birlikdə Azərbaycan milli ideyasının əsasını təşkil etdyi,multikulturalizm, çoxdillilik və çoxdinlilik şəraitində Azərbaycan dövlətçiliyi, azərbaycançılığın, Azərbaycan dövlət dilinin, mədəniyyətinin, milli mənəvi dəyərlərinin praktiki gerçəkləşməsinin böyük əhəmiyyət kəsb etməsi məsələləri tədqiq olunur. Qeyd edilir ki, Azərbaycan dili dövlət dili kimi daha da inkişaf etməklə yanaşı, Azərbaycanda yaşayan müxtəlif xalqların və etnik qrupların dilləri, dinləri, ənənələri, adətləri, mədəniyyətləri qorunub saxlanır. «Hər bir xalqın öz dilindən, dini etiqadından istifadə etmək, öz mədəni ənənələrinə riayət etməsi, onları inkişaf etdirmək hüququ konstitusiyada tətbiq olunmuşdur. Hər bir xalq öz maraqlarını qanunvericilik orqanlarında bərabər ifadə etmək hüququna malikdir, etnik və yaxud dini mənsubiyyət dövlət və hərbi xidmətdə irəliləmək üçün maneçilik törədə bilməz. Mədəni plüralizmin genişləndirilməsi qanunvericilik təşəbbüsü ilə məhdudlaşdırıla bilməz”[2]. Göründüyü kimi Azərbaycanda dövlət səviyyəsində, mədəniyyət, din və dil müxtəlifliyinə yardım edilir.

Millətlərarası ünsiyyət vasitəsi olan Azərbaycan dili zəngin tariximizlə, mədəni ənənələrimizlə indimiz və gələcəyimizlə sıx bağlı olan fenomendir.”Bütün bunlar dünya siyasətinin suveren subyekti,

---

[1]Xəlilov S. Lider. Dövlət. Cəmiyyət. Bakı: AUN, 2001, s.246

[2] Жуков Д.Б. Азербайджан как очаг мультикультурализма Евразийском пространства //Azərbaycanşünaslığın aktual problemləri/ Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmu VI Beynalxalq elmi konfransın materialları: 2 hissədə, II hissə. – Bakı: Mütərcim, 2015, c.44.

qlobal inteqrasiya əsrində ayrıca vahid kimi Azərbaycan dövlətçiliyinin bu gününü və gələcəyini formalaşdırır" [1].

Çoxdillilik və çoxdinlilik şəraitində Azərbaycan dövlətçiliyi, Azərbaycançılığın, Azərbaycan dövlət dilinin, mədəniyyətinin, milli mənəvi dəyərlərinin praktiki gerçəkləşməsi böyük əhəmiyyət kəsb edir. Akademik R.Mehdiyev yazır: "…Azərbaycan dili dövlət dili statusuna malik olmaqla yanaşı, həm də polietnik Azərbaycan cəmiyyətinin sıx birləşməsinin əsas vasitəsi kimi çıxış edir. Bu gün Azərbaycan milli inkişafın elə mərhələsindədir ki, «azərbaycanlı» anlayışı təkcə etnik məzmun kəsb etmir, həm də dövlət-vətəndaş mənasına malikdir"[2][66,149]. Müəllif Azərbaycan cəmiyyətində yaşayan bütün azsaylı xalqları azərbaycanlı, vətəndaş millət hesab edir, onları ümumi vətənin, vahid mədəniyyətin, dövlət dilinin və öz dövlətçiliyini möhkəmləndirmək istəyinin birləşdirdiyini bildirir.

Burada sosial-fəlsəfi təhlil belə qənaətə gəlməyə əsas verir ki, Azərbaycan milliliyin və ümumbəşəriliyin vəhdətindən ibarət ortaq mədəni dəyərlərə malikdir. Eyni zamanda Azərbaycanda bütün xalqların etnik, dini mənsubiyyətinə hörmət bəslənir, mədəni müxtəliflik dövlət səviyyəsində mühafizə olunur.

Диссертасийанын **«Нятиъя»** щиссясиндя tədqiqata йекун vurulmuş və burada onun əsas nəticələri, müəllifin нязяри-практик тювсийяляри və təklifləri ifadə olunur.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1.Müasirdövrdə dil və təfəkkür probleminin qarşılıqlı əlaqəsi:sosial-fəlsəfi kontekst.// Müasir mərhələdədə sosial fəlsəfənin aktual problemləri. Bakı:Təknur, 2011, s.166-175

2. Dilin hissi idrakla qarşılıqlı əlaqə problemi. // Pedaqoji Universitetin Xəbərləri. Bakı: ADPU-unu nəşriyyatı, 2011, N 5, s. 242-246.

3. Milli münasibətlər sistemində dil siyasəti.// AMEA –nın Məruzələri. Bakı: Elm,2012, N 5, s. 142-147

---

[1] Культурная политика в Азербайджанской Республике. Баку:Адилоглу, 2001, с.41

[2] Mehdiyev R. XXI əsrdə Azərbaycan ideyası kreativ millət kontekstində // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Bakı: DİA, 2012, №2 (38) s.149.

4. Qloballaşma şəraitində milli mədəniyyətin inkişafına dil amilinin təsiri.// Qloballaşma şəraitində kulturoliji innovasiyalar və sosial-mədəni inkişaf. Beynəlxalq konfrans materialları. Bakı: Təknur, 2002, s.29-31.

5. Müasir Qərbdə dövlət dili siyasətinin inkişaf meyilləri: sosial-fəlsəfi aspekt.// AMEA –nın Fəlsəfə Hüquq İnstitunda YUNESKO-nun təsis etdiyi "Umumdünya Fəlsəfə günü"nə həsr olunmuş Beynəlxalq Elmi-nəzəri konfrans materialları. Bakı: Təknur, 2012, s.136-147.

6. Dövlət dili siyasətinin əsas mahiyyəti.// Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Unversiteti.Mədəniyyət dünyası. Elmi-nəzəri məcmuə. XXV buraxılış, Bakı: ADMİU, 2013, s.83-88.

7. Социально-политчна сут мовнои политики держави.// Гилейа Науковий Висник журнал. Украйна. Киув : Выруск 75, ( N8 ) с. 328-330

8. Azərbaycan dilinin və mədəniyyətinin inkişaf perespektivləri.// Bakı Avrasiya Unversiteti "Sivilizasiya" jurnalı, Bakı: 2014, N4, s.18-23.

9.Multikulturalizm, çoxdillilik və Azərbaycan dil siyasəti // Bakı Avrasiya Unversiteti "Sivilizasiya" jurnalı, Bakı: 2016, N1, s. 199-206.

10.Milli siyasətdə dövlət dilinin rolunun sosial-fəlsəfi tədqiqinin aktuallığı və əhəmiyyəti.//Geostrategiya, 2016,N5(35),sentyabr-oktyabr, s.29-33

**Балакишиев Узеир Кара оглы**

# РОЛЬ ГОСУДАРСТВЕННОГО ЯЗЫКА В ФОРМИРОВАНИИ НАЦИОНАЛЬНОЙ ПОЛИТИКИ СОВРЕМЕННОГО АЗЕРБАЙДЖАНА: СОЦИАЛЬНО-ФИЛОСОФСКИЙ АНАЛИЗ

## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обосновываются актуальность темы, научная новизна, теоретическая и практическая значимость работы; даются сведения об обьекте, целях, задачах, источниках, методах исследования, об апробации и структуре диссертации.

Первая глава работы «**Фактор языка и его социально-философские проблемы в современной этнолингвистике**» состоит из трех параграфов.В ней предпринята попытка исследования теоретических и методологических основ этноязыковых процессов в современную эпоху, этнических особенностей взаимоотношений между языком и сознанием, мышлением, а также, философской сути «этнических», «национальных», «этноязыковых процессов». В диссертации концептуально исследованы существующие подходы к языку в этнолингвистических процессах, а также проведен сравнительный анализ государственных языков восточных и западных серан.

Во второй главе диссертации под названием «**Проблема государственного языка в системе национальных отношений: социально-философский подход**», состоящей из трех параграфов, исследуется вопрос государственного языка в многонациональных странах как неотъемлемой части национальной политики, его роль в формировании и развитии политики государственного языка и национального мышления, а также проблема государственного языка и национально-культурной автономии.

Третья глава диссертации «**Языковая политика в модернизирующаяся Азербайджане и ее философские аспекты**» состоит из трех параграфов. Этоа глава посвящена проблеме формирования и развития государственного языка в Азербайджане, его функциональному коммуникационномузначению в межнациональных отношениях, а также роли национального языка во взаимообогащении народов в мультикультурном обществе.

В заключении работыобобщаютсяосновные научные выводы исследования.

**Balakishiyev Uzeir Gara oghlu**

**THE ROLE OF THE STATE LANGUAGE IN THE FORMATION OF NATIONAL POLITICS IN MODERN AZERBAIJAN: SOCIO-PHILOSOPHICAL ANALYSIS**

## SUMMARY

The dissertational work consists of the "Introduction", three chapters,"Conclusion" and the list of the references.

In "Introduction" are proved the theme urgency, scientific novelty, the theoritical and prcktical importance of work; data on objekt, the purposes, problems, sources and research methods, on approbation and dissertation" s structure

ChapterI of the dissertasional work titled **"The Factor of Language and Its Socio-Philosophical Problems in Modern Ethnolinguistics"**consistsof there paragraphs.There hasbeen undertakin an attempt of the theoretical and methodological foundations of ethno-linguistic processes in the modern era, ethnic features of the relationship between language and consciousness, thinking, the philosophical essence of "ethnic", "national", "ethno-linguistic processes". There were conceptually analyzed existing approaches to language in ethnolinguistic processes, and also comparatively analyzed language and state language in the Eastern and Western contexts.

The state language in multinational countries as an integral part of the national policy, its role in the formation and development of the policy of the state language and national thinking of statehood, including, the prublem of the state language and national-cultural autonomy were studied in the Chapter II of the dissertation, called **"The Problems of the State Languagein the System of National Relations: Socio-philosophical approach".**

Formation and development of the state language in Azerbaijan, an important function of communication of the state language in interracial relations, as well as, the role of the national language in the mutual enrichment of peoples of multicultural society and cultural diversity" are involved in philosophical research in the third chapter of the thesis, which is called **"Language politcs in moderniting Azerbaijan and its philosophical aspects"**.

In**"Conclusion"** of the dissertation are generalized the basic scientific results and the judgments which have been put forward during research.

**НАЦИОНАЛЬНАЯ АК ІАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ**

---

*На правах рукописи*

**Балакишиев Узеир Кара оглы**

# РОЛЬ ГОСУДАРСТВЕННОГО ЯЗЫКА В ФОРМИРОВАНИИ НАЦИОНАЛЬНОЙ ПОЛИТИКИ СОВРЕМЕН НОГО АЗЕРБАЙДЖАНА: СОЦИАЛЬНО- ФИЛОСОФСКИЙ АНАЛИЗ

**Специальность:** 7207.01. Социальная философия

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по философии

**Баку-2017**